

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (21.190)

24 fevral 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yunan-Roma güləşi üzrə İranda keçirilən dünya kuboku yarışlarında qalib gəlmiş milli komandamızın üzvlərini qəbul edib.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev qazanılmış yüksək qələbə münasibətilə idmançıları və Güləş Federasiyasının üzvlərini təbrik etdi.

Azərbaycanda idmanın inkişafına toxunan Prezident İlham Əliyev dünya idman ictimaiyyətinin də Azərbaycan idmanına verdiyi yüksək qiymətdən danışdı. Nüfuzlu beynəlxalq yarışlarda medalların sayının ildən-ilə artdığını vurğulayan dövlətimizin başçısı ölkədə mükəmməl idman infrastrukturunun yaradılmasının önəmini qeyd etdi.

Ölkəmizdə mötəbər idman tədbirlərinin yüksək səviyyədə keçirildiyini vurğulayan dövlətimizin başçısı bu yaxınlarda Avropa Olimpiya Komitəsinin Baş Assambleyasının Bakıda keçirilməsini beynəlxalq idman ictimaiyyətinin Azərbaycana idman ölkəsi kimi verdiyi önəmin nəticəsi kimi qiymətləndirdi.

Milli komandanın üzvü Rafiq Hüseynov və böyük məşqçi Nurəddin Rəcəbov qazanılan uğurların təməlində idmana dövlət qayğısının durduğunu söylədilər və buna görə də dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Fevralın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Çoi-Suk İnlə görüşmüşdür.

Ali Məclisin Sədri Azərbaycan-Koreya münasibətlərinin tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirmişdir. Ali Məclisin Sədri muxtar respublikada elektron hökumətin tətbiqi və Naxçıvan Dövlət Universitetində elektron idarəetmənin təkmilləşdirilməsi sahəsində görülən işlərə, eləcə də ali təhsil müəssisələri arasındakı səmərəli əməkdaşlığa görə səfirə təşəkkür etmişdir.

Söhbət zamanı Ali Məclisin Sədri həyata keçirilən birgə layihələrin əhəmiyyətinə toxunmuş, elmi müəssisələr, avtomobil sənayesi və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu bildirmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən Çoi-Suk İn növbəti dəfə muxtar respublikaya səfər etməsindən məmnun olduğunu bildirmişdir. Naxçıvan Dövlət Universitetində elektron təhsil mərkəzinin açılışında iştirak edəcəyini diqqətə çatdıran səfir bu ali təhsil ocağının güclü potensiala malik olduğunu vurğulamış, bundan sonra da əlaqələrin inkişafında səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Görüşdə əlaqələrin inkişafı ilə bağlı müzakirələr aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsində ötən ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.*

Tədbiri giriş sözü ilə idarənin rəisi Vüqar Babayev açaraq məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, hesabat dövründə idarə tərəfindən din-dövlət münasibətlərinin tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və aparılması, dini icmaların radikal meyillərinin qarşısının alınması, radikal cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində bir sıra işlər görülüb.

Ötən il idarə tərəfindən xarici ölkələrdəki müqəddəs yerlərə ziyarətlərin təşkili, dini təyinatlı ədəbiyyatların yayımının qanunauyğun formada aparılması, kənd məscidlərində dini durumun öyrənilməsi istiqamətində görülmüş işlər, maarifləndirmə tədbirləri barədə tədbir iştirakçılarına məlumat verən idarə rəisi bildirib ki, ötən il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında” Sərəncam imzalayıb. Sərəncam əsasında komissiya yaradılıb və fəaliyyətə başlayıb.



Qeyd edilib ki, ötən müddətdə komissiya muxtar respublikanın bölgələrində dini vəziyyətin stabilliyinin qorunmasına, “Dini etiqad azadlığı haqqında” Qanunun müddəalarına riayət olunmasına, dini mərasimlərin, o cümlədən yas mərasimlərinin dini qaydalara uyğun keçirilməsinə, eləcə də din xadimlərinin yas yerlərində radikalizm meyillərindən uzaq olmalarına nəzarət edib. Komissiya üzvləri şəhər və rayonlarda radikalizm meyillərinin yayılmasının qarşısının alınması, radikal dini təriqətlərin formalaşdırılmasına imkan verilməməsi sahəsində birgə fəaliyyət göstərib, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçiriblər.

İdarə rəisinin sözlərinə görə, hesabat dövründə Dini Qurumlarla İş üzrə İdarənin əsas hədəfi muxtar respublikada islami dəyərləri olduğu kimi qoruyub saxlamaq, onlardan hansısa siyasi məqsədlər üçün istifadə etməyə cəhd edənlərin qarşısını almaq, milli-mənəvi dəyərlərin qorunması, ənənələrin yaşadılması, dini fəaliyyətin mövcud qanunvericiliyə və İslam dininin qaydalarına uyğun tənzimlənməsindən ibarət olub.

Sonra Naxçıvan Muxtar Respublikasının qazisi Mircəfər Seyidovun çıxışı olub.

* * *



*Dünən “Naxçıvanqaz” İstehsalat Birliyində də 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.*

Yığıncaqda birliyin direktoru Ramin İsmayılov məruzə ilə çıxış edib. Bildirib ki, muxtar respublikada 1 yanvar 2015-ci il tarixə 84106 abonent təbii qazdan istifadə edir ki, bunun 82352-si əhali, 1754-ü isə qeyri-əhali abonentidir.

2014-cü ildə qazlaşdırma ilə əlaqədar fiziki və hüquqi şəxslərdən daxil olan müraciətlərə əsasən, 1523 abonent təbii qazla təmin edilib. Bundan 1360-ı əhali, 163-ü qeyri-əhali abonentidir.

Qeyd olunub ki, bütün abonentlər üzrə istehlak olunan təbii qazın dəyərinin tam həcmdə toplanmasına nəzarəti gücləndirmək üçün abonentlərə ödəmənin icrasını poçt xidməti, bank xidməti, POS-terminalla ödəmə, internet üzərindən onlayn ödəmə üsulları ilə həyata keçirmək imkanı təklif edilib. Nağdsız ödənişlərin daha kütləvi aparılması üçün “Naxçıvanqaz” İstehsalat Birliyinə 39 ədəd POS-terminal aparatı verilib.

Vurğulanıb ki, muxtar respublikanın şəhər və rayon Qaz İstismarı idarələrinin təsərrüfatlarında, qaz şəbəkəsində istismarda olan müxtəlif diametrli qaz xətlərində dedektor və qazanalizatorlarla yoxlama zamanı ortaya çıxan 11782 ədəd qaz sızması aradan qaldırılaraq qaz itkisinin qarşısı alınıb. Haliyədə bu işlər davam etdirilir.

Muxtar respublikada təbii qaz istehlakçılarının istismara yararsız və ya köhnəlmiş 40782 ədəd qaz sayğacı istismardan çıxarılaraq yeni qaz sayğacları ilə əvəz edilib.

“Naxçıvanqaz” İstehsalat Birliyinin şəhər və rayon qəza dispetçer xidmətlərinə təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qaz xəttinin qırılması, tənzimləyicilərin dayanması və sair haqda 14849 ədəd çağırış daxil olub və bütün çağırışlara vaxtında müdaxilə edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

*Fevralın 23-də Naxçıvan Müəllimlər İnstitutunda Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.*

## Xocalı faciəsinə həsr olunmuş konfrans



Konfransı giriş sözü ilə açan institutun rektoru, professor Oruc Həsənli qeyd edib ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olub. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq, Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduğunu nümayiş etdirir. XX əsrin faciəsi olan Xocalı soyqırımı da həmin cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

İnstitutun Humanitar və təsviri incəsənət kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarov mövzu ilə bağlı məruzə edib. Məruzədə qeyd edilib ki, ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədləri bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən, ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı elə bir yaşayış məskənidir ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Erməni işğalından sonra bütün maddi-mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır. Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri erməni daşnaklarının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə – Xocalı soyqırımına beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Sonra tədbir iştirakçıları Xocalı soyqırımından bəhs edən sənədli filmə baxıblar.

İnstitutun rektoru, professor Oruc Həsənli tədbirə yekun vurub.

**Xəbərlər şöbəsi**



Naxçıvan Şəhər Gömrük İdarəsi

*24 fevral Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yarandığı gündür*

# Muxtar respublikada gömrük xidməti ildən-ilə inkişaf edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 24 fevral tarixli Qərarına əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaradılmışdır. Bu tarix hər il muxtar respublika gömrükçülər tərəfindən böyük sevinc və iftixar hissi ilə qeyd olunur.***

1992-1993-cü illər Naxçıvan Muxtar Respublikasında gömrük orqanlarının və sərhəd-keçid məntəqələrinin yaranma və formalaşma mərhələsi kimi böyük əhəmiyyət daşıyır. Həmin illərdə ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu sayəsində İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri arasında nəqliyyat əlaqəsi bərpa olunmuş, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması ilə blokadada olan muxtar respublika böhranlı vəziyyətdən çıxarılmışdır. Bu dövrdən başlayaraq qədim Naxçıvanda tarixən formalaşmış gömrük və ticarət əlaqələrinin milli və müstəqil meyillər əsasında inkişafı təmin olunmuşdur.

Ötən 23 il ərzində böyük inkişaf yolu keçən muxtar respublika gömrük sistemi özünün müasir infrastrukturu, möhkəm maddi-texniki bazası, yüksəkixtisaslı kadr təminatı, regionun xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılan idarəetmə modeli və ənənələri ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Son illər qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi daha da genişlənmişdir. Ötən dövrdə Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrində 24 saatlıq, Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində 12 saatlıq iş rejiminin tətbiq edilməsi gömrük işi sahəsindəki hərtərəfli inkişafın əyani göstəricisidir.

2001-ci ildə Naxçıvan Şəhər Gömrük İdarəsinin, 2004-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin, 2012-ci ildə isə Naxçıvan Gömrük Ekspertiza İdarəsinin və Gömrük Mühafizə Xidmətinin yaradılması nəticəsində muxtar respublika gömrük orqanlarının strukturu daha da genişləndirilmiş, gömrük sisteminin yenidən qurulması və maddi-texniki bazanın müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Beynəlxalq standartlar və yerli şərait nəzərə alınmaqla 2007-ci ildə Culfada, 2009-cu ildə isə Şahtaxtıda müasir gömrük kompleksləri tikilib istifadəyə verilmiş, 2012-ci ilin may ayında ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər



Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi

Gömrük İdarəsi üçün yeni kompleks fəaliyyətə başlamış, Naxçıvanda müasir gömrük laboratoriyası qurulmuşdur. Muxtar respublikanın gömrük sisteminin müasir tələblərə uyğun qurulması məqsədilə ötən ilin may ayında Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi və kinoloji xidmət üçün yeni inzibati binalar istifadəyə verilmiş, "Naxçıvanterminalkompleks" Birliyi üçün inşa olunan inzibati binanın tikintisi tamamlanmışdır. Bu baxımdan Sədərək sərhəd-keçid məntəqəsi üçün müasir kompleksin qurulması da muxtar respublikada həyata keçirilən mühüm infrastruktur layihələrindəndir. Son illər həyata keçirilən ardıcıl tədbirlər nəticəsində bütün sərhəd-buraxılış məntəqələri inkişaf etmiş, ümumilikdə, gömrük sisteminin müasir infrastrukturu və möhkəm maddi-texniki bazası formalaşdırılmışdır.

İş prosesində yüksək texnologiyalı avadanlıqların istifadəsi qaçaqmalçılıq hallarının qarşısının alınmasında, xarici ticarət əlaqələrinin inkişaf etdirilməsində, idxal-ixrac prosedurunun sadələşdirilməsində, ümumilikdə, gömrük işinin keyfiyyətinin artırılmasında əhəmiyyətli rol oynayır. Bu gün muxtar respublikanın gömrük sistemində ən müasir standartlar tətbiq olunur. Culfa və Şahtaxtı sərhəd-keçid məntəqələrindən sonra 2014-cü ildə Sədərək sərhəd-keçid kompleksində də X-Ray tipli rentgen nəzarət qurğusu istifadəyə verilmişdir. Dünyanın cəmi bir neçə inkişaf etmiş ölkəsində tətbiq olunan və ən müasir müayinə sistemi olan bu avadanlıqlar muxtar respublikaya bütün istiqamətlərdən daxil olan yüklərə gömrük nəzarətinin daha dolğun və operativ təşkilinə şərait yaradır. Hazırda gömrük orqanlarında iş prosesinin izlənilməsi və mövcud vəziyyətə operativ müdaxilə edilməsi üçün müasirtipli müşahidə kameraları mövcuddur. Komitədə qurulmuş "Hədəf mərkəzi"ndə tabeli gömrük orqanlarının 24 saat iş prosesinə, həmçinin mərkəzə bağlı olan müasir rentgen-nəzarət qurğuları vasitəsilə "GPS naviqasiya sistemi"nə nəzarət olunur. Muxtar respublika ərazisinə daxil olan avtonəqliyyat vasitələrinin sərhəd-keçid məntəqəsindən təyinat gömrük orqanına qədər hərəkəti məhz bu sistem vasitəsilə nəzarətdə saxlanılır.

Muxtar respublikada gömrük işinin səmərəliliyini artırmaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunur. İş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində görülən işlərin nəticəsidir ki, indi gömrük orqanlarında bütün əməliyyatlar elektron qaydada aparılır. Gömrük sərhəd-buraxılış məntəqələrində "bir pəncərə" prinsipi tətbiq olunur, Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə yük və nəqliyyat vasitələrinin qeydiyyatı və gömrük rəsmiləşdirilməsi, gömrük əməliyyatları üzrə maliyyə fəaliyyətinin tənzimlənməsi, gömrük sahəsində hüquqpozma faktlarının qeydiyyatı, statistik məlumatların formalaşması və analitik təhlilin aparılması, risklərin idarə olunması, kadrların uçotu və sənəd dövriyyəsi elektron qaydada həyata keçirilir. Bu məqsədlə yeni proqram təminatları tətbiq olunur, komitənin rəsmi internet portalı üzərindən göstərilən elektron xidmətlər ildən-ilə genişlənir. Artıq muxtar respublikanın gömrük orqanlarında eyniləşdirmə nömrəsinin verilməsi, sərnişin bəyannaməsinin tətbiqi, gömrük sərhəd-buraxılış məntəqələrindən keçiriləcək malların və nəqliyyat vasitələrinin bəyan edilməsi, aparılmış idxal-ixrac əməliyyatları ilə bağlı məlumatların əldə olunması, gömrük rəsmiləşdirməsinə başlamaq üçün müraciətin və gömrük orqanlarında xidmət üçün ərizə qəbulu da elektron formada aparılır.

Təcrübə göstərir ki, xarici ticarət fəaliyyətinin iqtisadi inkişafa xidmət etməsi üçün onun tənzimlənməsi vacibdir. Müasir dövrdə belə fəaliyyətin əsas tənzimləyicisi kimi gömrük orqanları çıxış edir. Daxili bazarın yerli istehsal sahələri nəzərə



Şahtaxtı gömrük kompleksi

alınmaqla qorunması xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, beynəlxalq əlaqələrdən asılılığı aradan qaldırmaqla iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, habelə ixrac potensialının artmasına da müsbət təsir göstərir. Bu gün Naxçıvan dünyanın 56 ölkəsi ilə ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsində ixrac əməliyyatlarının həyata keçirildiyi ölkələrin miqyasının ilbəil genişlənməsi müşahidə olunan mühüm yeniliklərdəndir.

Muxtar respublika gömrük orqanları hüquq-mühafizə fəaliyyətini də günün tələblərinə uyğun qurur, gömrük sahəsində cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması, onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədilə əməliyyat-axtarış fəaliyyətini davam etdirir. Qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarının qarşısının alınması üçün ən mütərəqqi üsullardan istifadə olunur, kinoloji xidmətin keyfiyyəti yüksəldilir, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət təmin olunur.

Muxtar respublikanın ticarət əlaqələrinin artması, gömrük infrastrukturunun və maddi-texniki bazanın möhkəmlənməsi beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə əlverişli şərait yaradır. 2012-ci ilin oktyabr ayında türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin Naxçıvanda keçirilən görüşü bu sahədə aparılan məqsədyönlü işlərin daha bir göstəricisidir. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

***Naxçıvan Muxtar Respublikasının gömrük orqanları muxtar respublikanın iqtisadi qüdrətinin artmasına bundan sonra da öz töhfəsini verəcək, həyata keçirilən sosial-iqtisadi siyasət tədbirlərini daim dəstəkləyərək qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqlar.***

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

# Yeni istehsal sahələri yaradılıb

***Ötən il Naxçıvan şəhərində tibbi spirtin qablaşdırılması və uşaq bezi istehsalı fabrikinin yaradılmasına başlanılıb. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış ərazidə inşaat işləri aparılıb, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib.***





Müəssisədə 2 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün ayrı-ayrı bölmələr yaradılıb.

Layihəyə uyğun olaraq, tibbi spirtin qablaşdırılması və uşaq bezi istehsalı sahələrində İran İslam və Çin Xalq respublikalarından alınmış, istehsal gücü saatda 1000 ədəd şərti butulka tibbi spirt, dəqiqədə 350 ədəd uşaq bezi olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə mərkəzləşdirilmiş nəzarət sistemi qurulub ki, bu da istehsal prosesi zamanı yaranan nasazlıqların vaxtında aradan qaldırılmasına imkan verəcək. Müəssisəyə yüksəkkeyfiyyətli xammalın idxal olunması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, Türkiyə, Almaniya, Koreya, İran və Pakistan respublikalarında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayrı-ayrı şirkətlərdən xammal idxalına başlanılıb. Müəssisənin yaradılması və müasir texnoloji avadanlıqların alınıb quraşdırılmasına, ümumilikdə, 1 milyon 820 min manat vəsait sərf olunub ki, bunun da 700 min manatı Sahibkarlığa Kömək Fondundan, 1 milyon 120 min manatı isə müəssisənin daxili imkanları hesabına ödənilib.

İllik istehsal gücü 2 milyon 496 min ədəd şərti butulka tibbi spirt və 52 milyon 416 min ədəd uşaq bezi olan bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. İlkin hesablamalara görə, muxtar respublikamızın tibbi spirtə olan illik tələbatı 360 min ədəd şərti butulka, uşaq bezinə olan tələbat isə 22 milyon ədəddir. Göründüyü kimi, yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılacaq.

Hazırda yeni istehsal sahələrində sınaq-yoxlama işləri aparılır, istehsal edilən uşaq bezi və tibbi spirtin nümunələrinin yerli məhsul olaraq tanıdılması və daxili bazarın tələbatının öyrənilməsi məqsədilə tədbirlər həyata keçirilir. Əvvəllər eyniadlı məhsullar muxtar respublikamıza xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılacaq, istehlakçılar daha münasib qiymətə keyfiyyətli məhsullarla təmin olunacaqlar.

Yeni istehsal müəssisəsinin yaradılması əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq. Müəssisə tam gücü ilə işləyən zaman burada 30 nəfər daimi işlə təmin olunacaq. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır. Bu da imkan verəcək ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

**Kərəm HƏSƏNOV**

Əziz Şərif – 120

# Əziz Şərifin xatirələri



***Tarixi çox da qədim olmayan Azərbaycan memuar ədəbiyyatı müxtəlif istiqamətləri əhatə edir. İndiyədək respublikamızda Birinci və İkinci Dünya müharibələrinin iştirakçıları, partizan hərəkatının nümayəndələri, ayrı-ayrı elm sahələri üzrə xüsusi xidmətləri olan məşhur şəxsiyyətlərə aid xatirələr toplanılıb çap edilərək oxuculara çatdırılmışdır. Memuar ədəbiyyatımızı zənginləşdirən bir istiqamət də məşhur şair, yazıçı, mədəniyyət və incəsənət xadimlərimiz haqqında yazılan xatirələrdir. Bu xatirələrin bir qismində müəlliflər öz ədəbi-mədəni və ictimai fəaliyyəti haqqında yazmışlar. İkinci qisim xatirələr isə başqa müəlliflərin müxtəlif şair, yazıçı, mədəniyyət və incəsənət xadimləri haqqında yazdıqlarıdır. Bu qrupa daxil olan xatirələrin olduqca az miqdarı gündəliklər və müxtəlif sənədlərə əsaslanmaqla yazılmışdır.***

Azərbaycan memuar ədəbiyyatının butipli nümunələrinin yaradıcısı filologiya elmləri doktoru, professor Əziz Şərifdir. Özünün dediklərinə görə, 1908-ci ildən gündəlik yazmağa başlamış və bu mədəni vərdişi, demək olar ki, ömrünün sonunadək davam etdirmişdir.

Ə.Şərifin 45 cildlik gündəliyinin avtoqrafı Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunur və bu günədək tam şəkildə oxuculara çatdırılmamışdır. Gündəliyin bütövlükdə yox, müəyyən hissələrinin çap etdirilməsində ilk təşəbbüs isə elə Ə.Şərifin özünə məxsusdur. Belə ki, o, keçən əsrin 60-70-ci illərində Bakıda çıxan "Azərbaycan" jurnalı, "Kommunist", "Ədəbiyyat və incəsənət" qəzetlərində dərc etdirdiyi məqalələrinə və 1977, 1983, 1986-cı illərdə çap olunan "Keçmiş günlərdən" seriyası ilə çap etdirdiyi kitablarındakı xatirələrinə gündəliyindən çox əhəmiyyətli və geniş oxucu kütləsinin marağına səbəb olan parçalar daxil etmişdir.

"Keçmiş günlərdən"in 1977 və 1986-cı illər nəşrlərində ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərimiz, Tiflisdə nəşr olunan bəzi milli mətbuat orqanlarımız, ədəbi əlaqələrimiz haqqında maraqlı xatirələr bir-birini əvəz edir. Biz bu xatirələr vasitəsilə "qısaboy, arıq və zəifvücud, məktəbli bluzası geymiş Sabirin" Tiflis həyatı, xəstəlik dövrü, sağlığında və vəfatından sonra şairə olan ümumxalq məhəbbətini əks etdirən maraqlı faktlarla qarşılaşır, müəllifin hələ lap uşaqlıqdan tanıdığı "böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran" unudulmaz ədibimiz Əbdürrəhim bəy Haqverdiyevin ayrı-ayrı əsərləri, elmi-ədəbi fəaliyyəti haqqında qiymətli məlumatlarla, xüsusilə ədibin öz əli ilə yazdığı və son dərəcədə böyük elmi əhəmiyyəti olan "tərcümeyi-hal"ının mətni ilə tanış olur, "səhnədə oynadığı rollarda olduğu kimi, həyatda da çox məlahətli, olduqca səmimi və sadə görünən" H.Ərəblinskinin aktyorluq fəaliyyəti, müəllifin "bir şair kimi hələ ilk addımlarından tanıdığı" Səməd Vurğunun 1953-cü ildə Ukraynada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirakı haqqında zəngin və oxuculara az məlum olan və ya heç məlum olmayan məlumatlar əldə edirik.

Alimin böyük şairimiz Hüseyn Cavid haqqındakı xatirələri isə xüsusi elmi əhəmiyyətə malikdir. Burada o, H.Cavidin 1906-1910-cu illərdə atası, görkəmli maarifpərvər Qurbanəli Şərifzadəyə İstanbuldan yazdığı səkkiz məktubunu ilk dəfə olaraq oxuculara təqdim edir. Məktublardan aydın olur ki, H.Cavidin İstanbulda keçən həyatı fərəhli olmamışdır. Lakin ağır maddi çətinliklər içərisində yaşamasına baxmayaraq, o, İstanbula çatdığı ilk günlərdən təhsil almaq, əsaslı biliklərə yiyələnmək üçün xüsusi səy göstərmişdir. Xatirədə H.Cavidin Tiflisdə və Bakıda yaşadığı illərdəki həyat və fəaliyyəti haqqında da oxuculara yeni və zəngin məlumatlar verilir. Müəllif H.Cavidin şöhrətli bir sənətkar olmasına baxmayaraq, bu şəhərlərdə də onun necə ağır və acınacaqlı bir vəziyyətdə yaşadığını müşahidə etdiyi konkret məqamlarla və tarixi sənədlərə söykənməklə gözlərimiz önündə canlandırır.

"Keçmiş günlərdən"in ikinci nəşrində əvvəlki kitabındakı xatirələrlə yanaşı, 9 yeni xatirəsi ilə də tanış oluruq. Həmin xatirələrdən öyrənmək olur ki, F.Köçərlinin zəngin arxivində hansı qiymətli sənəd və materiallar var imiş. Nəriman Nərimanovun bəzi şəxsi keyfiyyətləri necə imiş və mühacirətdə nəşr edilən mütərəqqi və demokratik Şərq mətbuatını uzaq Naxçıvanda yaymaq üçün Q.Şərifzadənin vasitəsilə abunəçilər toplayırmış, Üzeyir Hacıbəylinin "Koroğlu" operasının Bakıda ilk dəfə tamaşaya qoyulmasında müəllif və digər ədəbiyyat və mədəniyyət xadimləri hansı hazırlıq işləri aparıbmış, operaya ictimai baxış hansı səviyyədə keçirilib və əsərin ilk tamaşasının əks-sədası necə olubmuş, ömrünün son illərini Azərbaycan teatrına həsr edən rus aktyoru və rejissoru A.Tuqanovun 1937-ci ildə V.Şeksprin "Romeo və Cülyetta" əsərini Azərbaycan Dram Teatrında tamaşaya qoyması ilə bağlı təfsilat necə imiş, məşhur rus şairi Demyan Bednı tərəfindən M.Ə.Sabirin şeirlərinin bir neçəsinin rus dilinə tərcümə edilməsinə cəhd olunması və bu işin baş tutmamasının səbəbləri nə imiş və sair.

Görkəmli alim Əziz Şərifin "Keçmiş günlərdən" seriyasına daxil olan həcmcə ən böyük memuarı "Atam və mən" adlanır. Xatirəni yazmaqda müəllifin əsas məqsədi uzun illərdən bəri davam edən gündəlik qeydləri və müxtəlif şəxslər tərəfindən özünə və atasına göndərilən məktublar, teleqramlar (həmçinin öz məktub və teleqramları) vasitəsilə atası Q.Şərifzadənin ictimai fəaliyyəti, hörmət və ehtirama layiq olan bir sıra insani keyfiyyətləri, qayğıkeş bir ata kimi ailəsinə münasibətinin təzahür məqamları, özünün isə oğulluq borcu və vəzifələrini necə başa düşüb qiymətləndirməsini oxuculara çatdırmaqdan ibarətdir.

Xatirəni oxuduqca Q.Şərifzadənin məşəqqətli, lakin son dərəcə şərəfli həyat yolu ilə tanış olur, onun dövrünün məşhur simaları ilə – M.T.Sidqi, C.Məmmədquluzadə, F.Köçərli, M.Ə.Sabir, Ə.Talıbov, H.Cavid, N.Nərimanov və başqaları ilə əlaqələri, "öz duzlu felyetonları ilə" "Molla Nəsrəddin" jurnalında "Mozalanbəy" imzası ilə çıxış etməsi, mükəmməl bildiyi mühəndislik sənəti ilə ölkənin bir sıra dəmiryollarının çəkilişində can qoyması haqqında yeni və zəngin məlumatlar alırıq. Xatirədən aydın olur ki, Q.Şərifzadəyə məxsus olan ən səciyyəvi keyfiyyətlər bunlar imiş: təmizlik, yaxşı mənada sadəlövhlük, qayğıkeşlik, əməyə, zəhmətə aludəlik, tələbkarlıq, məğrurluq, səxavətlilik. Bütün bu keyfiyyətlər Q.Şərifzadəyə xatirə müəllifi tərəfindən sadalama yolu ilə aid edilmir. Oxucuların özu bunları sanki görür və hiss edir.

"Atam və mən" kitabının bir qiymətli cəhəti də odur ki, biz burada M.T.Sidqinin "Məktəbi-Tərbiyə"si, müəllifin görkəmli rəssam B.Kəngərli ilə görüşləri, "Molla Nəsrəddin" jurnalının nəşrolunma şəraiti və onun əməkdaşları haqqında da maraqdoğuran məlumatlara rast gəlirik.

Ə.Şərif "Keçmiş günlərdən" seriyasına daxil etdiyi yazılarını "sənədli xatirələr" adlandırmışdı. Bu heç də təsadüfi bir adlandırma deyil. Çünki onun elə bir xatirəsini tapmaq olmaz ki, o, ancaq müəllifin yaddaşına əsaslanaraq yazılmış olsun. Vaxtilə alimin özü də buna işarə edərək yazmışdır: "...Şəxsən mən sənədsiz və sənədlə təsdiq edilməmiş xatirələrə həmişə şübhə ilə yanaşmağı adət etmişəm, özüm də uzaq keçmişin bir hadisəsini yada salanda çox ehtiyatla, min dəfə ölçüb-biçəndən sonra qələmə alır, oxuculara təqdim edirəm".

Əziz Şərifin xatirələrində onun öz obrazı da görünür. Əslində, həmin xatirələrin baş qəhrəmanı da onun özüdür. Maraqlıdır, Əziz Şərif obrazı xatirələrdə necə təzahür edir? Bu sualın ən yaxşı cavabını "Keçmiş günlərdən" kitabına ön söz yazan akademik M.Cəfər vermişdir: "Xatirələrdə müəllif özü varsa da, bizə onun mənəvi aləminin ancaq bir cəhəti – onun elm, mədəniyyət dostu, ədəbi-mədəni irsin qayğıkeş qoruyucusu olması və əməlpərvər sənətkarlara bəslədiyi dərin hörmət və məhəbbəti görünür".

Professor Ə.Şərifin bütün xatirələri maraqlı bir üslubda yazılmışdır. Birinci növbədə, müəllifin məharəti onda özünü göstərir ki, o, hər hansı bir mövzuya həsr etdiyi xatirələrdə elə ilk sətirlərdən oxucunun diqqətini cəlb edir, sonra isə müxtəlif ədəbi manevrlərlə bu diqqətin yayınmasına imkan vermir. Oxucuları təəccübləndirmək, inandırmaq, düşündürmək, təqdim edilən fakt və məlumatlardan nəticə çıxarmaq kimi xüsusiyyətlər bu xatirələrin ən dəyərli məziyyətləridir.

Görkəmli alim xatirələrində memuar janrına verilən tələblərə əməl edərək bədii uydurmalara qətiyyən yol verməmişdir. Lakin bu xatirələrdə, xüsusilə "Atam və mən"də Ə.Şərifə məxsus obrazlı və emosional bir deyim tərzini də sezməmək mümkün deyil. Bu xüsusiyyət xatirələrə "Gündəlik"dən daxil edilən parçalarda daha çox özünü göstərir. Bunun səbəbini Ə.Şərif belə izah edir: "...Bədii ədəbiyyata aludə olan və boş vaxtını mütaliəyə sərf edən mən gündəliyimi də bədii əsər kimi yazmağa, öz istedadımı və bacarığımı bədii yaradıcılıqda da sınamağa çalışırdım". Ə.Şərifin xatirələrini səciyyələndirən ən mühüm xüsusiyyətlərdən biri də, təxminən, yüzillik bir dövrün ictimai-siyasi və ədəbi-mədəni ab-havasını hifz edib özündə saxlamasıdır. Biz bu xatirələrdə Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyəti tarixinin çox mühüm və öyrənilməmiş səhifələrini vərəqləmək, XIX əsrin 90-cı illərindən XX əsrin eyni illərinədək olan dövrü əhatə edən bir epoxanın ədəbi salnaməsi ilə tanış olmaq imkanı əldə edə bilirik. Cəsarətlə demək olar ki, Azərbaycanda Ə.Şərifin xatirələri qədər, zaman etibarilə, böyük bir dövrü əhatə edən, etibarlı fakt və sənədlərə söykənən, öz aktuallığını uzun illər boyu saxlamaq gücünə malik olan, ədəbiyyat və mədəniyyət tariximizi öyrənən tədqiqatçılara elmi istiqamət verən, ensiklopedik xarakteri ilə seçilən ikinci bir memuar nümunəsi tapmaq çətindir.

Bu gün Ə.Şərifin xatirələri, necə deyərlər, öz missiyasını yerinə yetirmişdir. Yüzlərlə məqalə, oçerk, dissertasiya və monoqrafiyalarda istinad edilən ən mötəbər mənbə kimi bu xatirələrin bir çox məlumatların dəqiqləşdirilməsində, irəli sürülən elmi mülahizələrin əsaslandırılmasında, yeni araşdırmaların izinə düşülməsində, bir sözlə, ədəbiyyat tariximizdə yazılmamış ağ səhifələrin doldurulmasında xüsusi əhəmiyyəti olmuşdur.

*Böyük alimin xalqımıza bəxş etdiyi bu mənəvi sərvət gələcək tədqiqatlar üçün də zəngin material verən tükənməz bir xəzinədir.*

**Fərman XƏLİLOV**
***filologiya üzrə elmlər doktoru***



## Magistratura təhsil pilləsinə qəbul imtahanının birinci mərhələsi keçirilib

***Tələbə Qəbulu üzrə Dövlət Komissiyası fevralın 22-də 2015-2016-cı tədris ili üçün ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanının birinci mərhələsini keçirib.***

İmtahan respublikanın 6 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki və Lənkəran şəhərlərində, ümumilikdə, 38 imtahan mərkəzində aparılıb. İmtahan bütün binalarda eyni vaxtda – saat $13^{00}$-də başlanıb və 2 saat 30 dəqiqə davam edib.

Naxçıvan şəhərində Naxçıvan Dövlət Universitetində keçirilən imtahana 43 nəzarətçi və 3 imtahan rəhbəri cəlb edilmişdi. 535 bakalavriatın iştirak etdiyi imtahan təlimata uyğun olaraq keçirilib, bakalavriatların öz bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Bu mərhələdə bakalavriatlara ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsinin yoxlanılması üçün 50 (5-i açıqtipli), informatika üzrə 25 (5-i açıqtipli) və xarici dil üzrə 25 (5-i açıqtipli) test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına verilən düzgün cavab bir balla qiymətləndirilir, səhv cavablar ümumi nəticəyə təsir göstərmir.

Nəticələrin yaxın günlərdə elan olunması nəzərdə tutulur.

## Texniki Kollecdə təlim-tədrisin səviyyəsi yüksəldilib

*Naxçıvan Dövlət Texniki Kollecində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclas keçirilib. İclası giriş sözü ilə kollecin direktor əvəzi Asəf Ruşanov açaraq məruzə edib.*



Bildirilib ki, 2014-cü ildə kollecdə 33 nəfər müəllim çalışıb. Bunlardan 26 nəfər müəllim tam ştat üzrə, 7 müəllim isə saathesabı tədris aparıb. 2013-2014-cü tədris ilinin sonunda kollecdən 62 nəfər tələbə əyani şöbədən, 16 nəfər tələbə isə qiyabi şöbədən, ümumilikdə, 78 nəfər məzun olub. Bunlardan 13 nəfəri fərqlənmə diplomuna layiq görülüb. Ötən il kollecdə dərslərin normal keçilməsi üçün hər bir şərait yaradılıb. Dərslər, əsasən, bir növbədə həyata keçirilib, elektron vasitələrdən və vəsaitlərdən istifadə etməklə tədris edilib. 2014-2015-ci tədris ilində əyani şöbədə 6 ixtisas üzrə 17 qrupda 312 tələbə təhsil alır. Bunların 186 nəfəri dövlət hesabına, 126 nəfəri isə ödənişli əsaslarla oxuyur. Kollec üzrə 303 nəfər payız imtahan sessiyasında iştirak edib. Bunlardan 24 nəfər tam əlaçı, 71 nəfər yarım əlaçı, 182 nəfəri qarışıq müsbət qiymətlər alıb. Kollec üzrə mənimsəmə 91,5 faiz, müvəffəqiyyət 34,7 faiz olub.

Tədbirdə kollecin müəllimlərindən Süreyya Ələkbərovanın və Rəfail Abdullayevin çıxışları olub.

**Xəbərlər şöbəsi**

## Hərbi-vətənpərvərlik təbliğ olunur

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi ilə Ağsaqqallar Şurası hərbi-vətənpərvərliklə bağlı Sədərək rayonunda tədbir keçirib. İctimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov açıb və tədbirin əhəmiyyətindən danışıb.*

Sonra Yazıçılar Birliyinin sədri Asim Yadigar çıxış edib. Qeyd olunub ki, muxtar respublikada ordu quruculuğu sahəsində çox böyük işlər həyata keçirilib. Sərhədlərimizi qoruyan, Vətənin keşiyini çəkən hər bir əsgər hiss edir ki, onun arxasında güclü dövlət dayanıb.

Vurğulanıb ki, biz bu gün yurdumuzun alınmaz qeyrət qalası Sədərəkdəyik. Sədərək Naxçıvanın alınmaz qalası olmaqla yanaşı, həm də inkişafı ilə düşmənə gözdağına çevrilən bir diyardır. Ulu öndər Heydər Əliyevin qayğısı ilə yaradılan Heydərabad qəsəbəsi bu gün öz sürətli inkişafı ilə Azərbaycanın, Naxçıvanın intibahının güzgüsünə çevrilib.

Şair-publisist İbrahim Yusifoğlu çıxışında bildirib ki, ordumuzun texnika, silah-sursat baxımından təchizatının gücləndirilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı, ölkə Prezidenti cənab İlham Əliyevin daimi diqqətindədir. Bu gün hərbi hissələrimiz ən müasir silahlara və döyüş texnikasına malikdir.

Sədərək Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının sədri Teymur Quliyev çıxışında qeyd edib ki, təşkilatımızın üzvləri "N" hərbi hissənin əsgərləri ilə mütəmadi olaraq görüşlər keçirirlər. Müxtəlif bayramlar, ənənəvi günlər ərəfəsində bu səfərlər daha çox olur.

Bu gün Azərbaycan Ordusu çox güclü bir orduya çevrilib. Bunu bütün görüşlərdə hiss etmək mümkündür. Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət bunu deməyə əsas verir. Biz müharibə veteranları bunu açıq şəkildə görürük və inanırıq ki, Azərbaycan Ordusu istənilən vaxt işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir.

Sədərək döyüşlərinin iştirakçısı olmuş tarix üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-publisist Vaqif Məmmədov qeyd edib ki, 26 ildir, müharibə şəraitində yaşayırıq. 1988-ci ilin fevral ayından başlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi işğalçı ölkənin məkrli niyyəti üzündən hələ də həll olunmamış qalır. Atəşkəs elan olunsa da, Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş Ermənistan sülh danışıqlarından hər dəfə yayınır.

Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunub. Bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olub, 4866 nəfər itkin düşüb, 100 min nəfərdən çox soydaşımız yaralanıb.

Sədərək döyüşlərində 108 eloğlumuz şəhidlik zirvəsinə ucalıb. Onlardan 52 nəfəri sədərəklidir. Rayonda 54 şəhid ailəsi və 149 nəfər müharibə əlili yaşayır. Son illər 6 şəhid ailəsi, 6 əlil üçün yaşayış evi tikilib, 60 nəfər müharibə əlilinə isə minik avtomobili verilib.

Sonda şairlərin vətənpərvərliklə bağlı şeirləri dinlənilib. Onların kitablarından nümunələr rayon kitabxanalarına hədiyyə olunub.

✍ **Cəfər ƏLİYEV**

## Güləş üzrə şəhər birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində 26 fevral – Xocalı faciəsinin 23-cü ildönümünə həsr olunmuş yeniyetmələr (1998-2000-ci illər təvəllüdlü) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər açıq birinciliyi başa çatıb.*

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarış Xocalıda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açaraq Xocalı faciəsi barədə idmançılara məlumat verib. Məktəbin direktoru Yaşar Səfərov yarışın qaydaları haqqında idmançıları məlumatlandırıb və uğurlar arzulayıb.

Birincilikdə Naxçıvan şəhər idmançıları ilə yanaşı, Şərur rayon idmançıları da öz qüvvələrini sınayıblar. 9 çəki dərəcəsində 70-ə yaxın idmançının iştirak etdiyi birinciliyin nəticəsinə əsasən, Ümid Əliyev (42 kq), Ramin Qubuşov (46 kq), Kənan Kərimov (50 kq), Ərkal Məmmədov (54 kq), Murad Quliyev (58 kq), Əbülfəz Məmmədov (63 kq), Rauf Qurbanov (68 kq), Novruz Ağazadə (76 kq), Sərxan Əliyev (85 kq) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutmuş idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

## Bədii gimnastikaya maraq artır

***İnsanın hər bir hiss və həyəcanı bədənin müəyyən hərəkəti ilə müşayiət olunur. Bu hərəkəti ifadə etməklə qarşındakı fərddə təşviş, həyəcan yaratmaq mümkündür. Fransız pedaqoq Fransua Delsart hərəkət vərdişləri nəzəriyyəsini hazırlayarkən kütləvi gimnastika çıxışlarının da əsasını qoymuş oldu. Düzdür, o zamanlar sərbəst plastika hərəkətlərinin üzərində qurulmuş rəqslər və improvizasiyalar müasir bədii gimnastikadan bir qədər fərqli idi. Lakin prinsipcə və ideyaca eyni olan bir idman növünün yaranışı məhz bundan başlayır.***





Bir idman növü kimi XIX əsrdə formalaşmağa başlayan bədii gimnastika dinamik təmrinlərin, əzələ dartılması və boşalması təmrinlərinin, rəqs addımlarının, müxtəlif əşyalarla (top, halqa, toppuz, lent) tapşırıqların yerinə yetirilməsidir. Eyni zamanda bu təmrinlər elastiklik, çeviklik, gözəl bədən quruluşu, cəlbedici və əsrarəngiz hərəkətlərin meydana gəlməsinə də şərait yaradır.

Muxtar respublikada bu gün digər idman növləri ilə yanaşı, bədii gimnastika da diqqətdən kənarda qalmayıb. Bu gün muxtar respublikada gimnastika özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bədii gimnastikanın kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Artıq bir ildən çoxdur ki, davam edən bədii gimnastika məşqlərində indi muxtar respublikanın şəhər və rayonlarından 50-yə yaxın uşaq iştirak edir. Məşqçi-müəllim, Azərbaycanın idman ustası Humay Qafarova ilə söhbətimiz də məhz bu yöndə oldu: "Dünya idmanında elit idman növü kimi tanınan bədii gimnastikanın inkişafına muxtar respublikada diqqət göstərilməsi sevindirici haldır. Mənim özüm də bu idman növünün sirlərini ilk dəfə Naxçıvanda öyrənmişəm. Qısa vaxtda yaranmasına baxmayaraq, bu növə maraq olduqca çoxdur. Xüsusilə valideynlər uşaqlarının bu növə yiyələnməsi üçün səylə çalışırlar. Ümumiyyətlə, bədii gimnastika ilə 3-11 yaş arası qızlar məşğul olurlar ki, bizim də məşqlərimiz məhz bu yaşlı qızlarla aparılır".

Bu növün inkişafı üçün Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi bir sıra addımlar atıb. İlk növbədə, bu yaşda (3-11 yaş arası) olan qızlarımızı bədii gimnastikaya cəlb etmək üçün bağçalara, məktəblərə afişalar vurulub. Təbii ki, bir idman növünün kütləvi hal alması üçün bu cür piarlar aparmaq alqışalayiq haldır. Əvvəllər məşqlər İlham Əliyev adına Olimpiya-İdman Kompleksində aparılsa da, sonradan məşq yeri dəyişdirilib. Bunun səbəbi isə bu növə müraciət edənlərin sayının çoxluğu ilə əlaqədardır. İndi bədii gimnastika məşqləri Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasının zalında aparılır. Daha dəqiq desək, bura artıq bədii gimnastların ixtiyarına verilib. "Bizim məqsədimiz bu idman növünü muxtar respublikada geniş yaymaq və daha çox uşaq cəlb etməkdir. Gənclər və İdman Nazirliyi ilə birlikdə işlərə başlamışıq və bizə yeni zal verilib. Burda günün, demək olar ki, çox hissəsi məşqlərə ayrılır. Tədris planı ilə üst-üstə düşməsin deyə, məşqlərimiz günün ikinci yarısının hər saatında aparılır. İnanıram ki, qısa vaxt ərzində bədii gimnastika Naxçıvanda ən çox sevilən idman növü olacaq və gördüyümüz işlər bəhrəsiz qalmayacaq". Humay Qafarova belə deyir.

Məşqçi-müəllim sonda yaradılan şəraitə görə minnətdarlığını bildirdi: "Muxtar respublika rəhbərinin bu sahəyə göstərdiyi diqqət və qayğı Naxçıvanda idmanın inkişafını sürətləndirir və uşaqların, yeniyetmələrin, gənclərin bu sahəyə axınını təmin edir. Digər növlər kimi, bədii gimnastikanın da qısa vaxt ərzində sürətli inkişafı məhz bu diqqətin səmərəli nəticəsidir. Yaradılan şəraitə görə minnətdarlığımızı bildiririk".

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 mart 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhərinin Xətai məhəlləsində 0,1003 ha torpaq sahəsində yerləşən, 58A nömrəli, 3 girişli, 469,72 kv.m ümumi, 337,22 kv.m əsas, 132,5 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası. Karton-makulatura sexi. | Naxçıvan şəhəri, Xətai məhəlləsi | 195.000 | 195.000 | 9750.00 |
| 2. | Naxçıvan şəhəri, "7A" məhəlləsində 0,0609 ha torpaq sahəsində yerləşən 15 nömrəli binada 568,22 kv.m ümumi, 282,12 kv.m əsas, 286,1 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası. | Naxçıvan şəhəri, "7A" məhəlləsi | 120.000 | 120.000 | 6000.00 |

Hərracda qanunvericiliyə müvafiq olaraq, alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan fərdi yaşayış evinin ilkin satış qiymətinin 5 % məbləğində beh "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesaba 13 mart 2015-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 13 mart 2015-ci il tarixə qədər hər gün saat 9⁰⁰-dan 18⁰⁰-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;
- "Bank of Azerbaijan" ASC-nin 12 saylı Naxçıvan filialı tərəfindən müəyyən edilmiş behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti;
- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərrac 19 mart 2015-ci il tarixdə saat 10⁰⁰-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

*Novruza doğru*

## Su çərşənbəsi

### *Su Tanrının insana bəxş etdiyi ən böyük və əvəzsiz sərvətdir*

***Novruz xalqımızın milli-mənəvi varlığını bütün dolğunluğu ilə əks etdirən, ümumxalq səviyyəsində qeyd olunan, etnik təfəkkürdə daşlaşmış bayramdır. Bu bayramın elmi-mifoloji şərhi ilə əlaqədar elmi düşüncədə müxtəlif mülahizələrin olmasına baxmayaraq, tədqiqatçılar Novruzun bahar bayramı olması fikrinə əsaslanır. Çünki bayramın semantikasında xalq-meydan tamaşalarından tutmuş ayrı-ayrı mövsümi atributlara qədər bu "mifoloji yol"un izləri özünü qoruyub saxlamışdır.***



Gecə ilə gündüzün bərabərləşməsini, xeyir qüvvələrin şər qüvvələr üzərində qələbə çalmasını, ildırımın çaxmasını, yağışın yağmasını, əkinçilik təsərrüfatı həyatının başlanğıcını özündə təcəssüm etdirən Novruz ulu əcdadlarımızın əski bayramlarından olmuş, insana həyat verən dörd ünsürün – suyun, odun, yelin (havanın), torpağın isinməsi, "dirilməsi" istəyi ilə bağlı yaranmışdır.

Əski inamlara görə, insana fayda verməyən "ölü" hesab edilirdi. Məhz bu mənada torpağın məhsul verməsini "dayandırması", onun "donması" insanın ən zəruri həyat nemətlərindən məhrum olması kimi dərk edilirdi. Yığılan azuqə ehtiyatı tükəndikcə insanda torpağı oyatmaq, əkmək, biçmək arzusu artırdı. Torpaq isə birdən-birə "dirilmirdi", oyanmırdı. Onun oyanması üçün su, istilik (od, Günəş) və yel (hava) lazım idi. Elə bu arzu ilə bağlı xalq çox qədimdən həmin dörd ünsürlə əlaqədar özünün zəngin adət-ənənə, etiqad və ayinlərini yaratmışdır. Təzə ilə dörd həftə qalmış bu mərasim və etiqadlar icra olunmağa başlanmışdır.

Yazı – yeni günü qarşılamaq məqsədilə keçirilən "Novruz çərşənbələri" adlı mərasimlərdə əcdadlarımızın təbiətə təsir etmək, onu mülayimləşdirmək, işığı, Günəşi çağırmaq arzu-niyyəti öz əksini tapmışdır. Kiçik çilləyə düşən günlərdə qeyd edilən üç çərşənbə el arasında "oğru çərşənbələr" adlanır. Oğru çərşənbələrdən sonra gələn və boz ayı çevrələyən əsas çərşənbələr "doğru çərşənbələr" ("doğru üsgülər", "doğru buğlar", "çilləbeçələr", "cəmlələr") adıyla tanınır. Doğru çərşənbələrdə yazın nəfəsi növbəylə havanın, suyun, ağacların, torpağın canına hopub onları oyadır. Yazın nəfəsi öncə hava və suya toxunur və bununla da, el arasında deyildiyi kimi, "sulara ixtiyar verilir", "sular çillədən çıxır". Sulara ixtiyar verilməsi, daha doğrusu, suların ixtiyarının özünə qaytarılması o deməkdir ki, həmin gündən başlayaraq sular daha donmur, şaxta onu dondurub ixtiyarını əlindən ala bilmir.

Boz ayın dörd çərşənbəsinin birincisi əzəl çərşənbədir. Xalq içərisində çox əzizlənən bu çərşənbə "əvvəl çərşənbə", "gözəl çərşənbə", "su çərşənbəsi", "sular novruzu", "gül çərşənbə" kimi də tanınır. Mənbələrə görə, əzəl çərşənbədə təzə ilin gəlməsi münasibətilə ən əvvəl su təzələnir, elə buna görə də bu çərşənbə su çərşənbəsi adlanır.

Əzəl çərşənbə suya tapınma inamı ilə başlayır. Hamı hələ gün doğmamışdan su üstünə gedir, təzə suda əl-üzünü yuyur, biri-birinin üzərinə su çiləyir, su üstündən atdanır, yaralıların yarasına su səpirdilər. İnama görə, təzə su, daha doğrusu, əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu dərdlərin dərmanıdır. Çox ehtimal ki, Xızırın dirilik çeşməsindən su içdiyi, Koroğlunun Qoşa bulağı tanıdığı gün də elə əzəl çərşənbə günü olmuşdur. Əski inamlarda su sağlamlığın rəhni idi. Su çərşənbəsi günü təzə sudan keçənlər, azarını-bezarını ona verənlər ilboyu xəstəliklərdən uzaq olardılar. Elə həmin gün su üstündə bir sıra ayinlər icra edilərdi. Səsi batanlara, danışa bilməyənlərə bu sudan içirərdilər. Bir çox xəstəliklər su çərşənbəsində sağaldılarmış. Suya etiqad bəsləyənlərin bütün xəstəliklərini, günahlarını yalnız ildə bir dəfə – su çərşənbəsi mərasimində təzə suyun yuyub apardığına inanılardı. Adamlar elə buradaca günah işlətməyəcəklərinə, adamlara ancaq və ancaq yaxşılıq edəcəklərinə and içərdilər. Mərasim suyun başına dövrə vuran adamların suyu vəsf etdikləri nəğmələrlə başa çatardı.

Su çərşənbəsi günü adamlar səhər tezdən axar suyun üstünə üz tutarlar; çillə kəsdirər, niyyət eləyib suyun üstündən tullanar, əl-üzlərini yuyar, biri-birinin üstünə su çiləyərək "bu, mübarək sudu" deyərlər. Qucaqdakı körpələri, qoca və xəstələri də su üstündən hoppandırardılar ki, salamatlıq, əmin-amanlıq, xoşbəxtlik olsun. Suyun qüdrətini, müqəddəsliyini həmişə önə çəkən əcdadlarımız hətta ilin axır çərşənbəsində belə, "suüstü" deyilən mərasimi təntənə ilə qeyd etmişlər. Ulularımız arzu və niyyətlərini, dərdlərini suya söyləmiş, onu həmdəm bilmişlər. Səfərə çıxanın, uzaq ellərə yol alanın arxasınca su atmışlar ki, getdiyi yerdə su kimi əziz olsun, işini uğurla başa vursun.

"Su bulanmayınca durulmaz", "Su murdarlıq götürməz", "Suyu çirkləndirənin nəşini yumağa su tapılmaz", "Suyu ver susayana, içsin qana-qana", "Su olan yerdə dirilik olar", "Su içən adamı qəfil vurmazlar", "Süfrəyə su dağılması aydınlıqdır", "Su dolu qabla qabağına çıxsalar, işin avand olar", "Su kiçiyindir, yol böyüyün", "Su içəni danışdırmazlar", "Lal axan sudan keçməzlər", "Su içən adamı ilan çalmaz" və başqa inanclar, "Su haqqı!", "Axar suya and olsun!" kimi andlar ulu əcdadlarımız tərəfindən su ilə bağlı yaradılan müdrik kəlamlardır.

İlaxır çərşənbələrin hər biri əcdadlarımızın elə müqəddəs etiqadları, duyğuları ilə bağlıdır ki, bu gün onları öz dünənimiz, keçmişimiz kimi bilməyə borclu olmaqla gələcək nəsillərə çatdırmalıyıq.

**Nizami ƏZİZƏLİYEV**

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 165